Azərbaycan Dövlət Pedaqoji Universiteti Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri №1, 2019, **s. 80-84**
Азербайджанский Государственный Педагогический Университет Актуальные проблемы музыкальной науки, культуры и образования №1, 2019, **c. 80-84**
Azerbaijan State Pedagogical University Actual problems of the science, culture and education of music №1, 2019, **pp. 80-84**

UOT 398.81

K.Ə.Atakişiyeva
sənətşünaslıq üzrə fəlsəfə doktoru, baş elmi işçi
AMEA Folklor İnstitutu
AZ1001, Bakı ş., İçərişəhər, 8-ci Kiçik qala, 31
E-mail: kamala.bashirova@mail.ru

AŞIQ SƏNƏTİNDƏN XANƏNDƏ YARADICILIĞINA YOL TAPMIŞ MAHNILAR

Açar sözlər: *aşıq, xanəndə, xalq mahnısı, muğam, janr, yaradıcılıq*

Məqalə aşıq yaradıcılığında yaranan mahnılara həsr edilmişdir. Burada aşıq yaradıcılığında yaranan mahnıların xanəndə yaradıcılığında təşəkkül tapması ilə bağlı məlumat verilir. Məqalədə Şirvan aşıq mühitinə xas olan mahnı yaradıcılığı ilə bağlı müxtəlif mənbələrə istinad edilmiş, bu mühitə xas aşıq mahnıları qeyd edilmişdir. Eləcə də müəyyən aşıq havalarının musiqi məzmununa əsaslanan xalq mahnıları haqqında da məlumat verilmişdir.

К.А.Атакишиева

ПЕСНИ, ТРАНСФОРМИРОВАННЫЕ С АШУГСКОГО ИСКУССТВА В ТВОРЧЕСТВО ХАНЭНДЭ

Ключевые слова: *ашуг, ханэндэ, народная песня, мугам, жанр, творчество*

Статья посвящена жанру песни в ашугском творчестве. В статье дается информация о песнях созданных ашугами и которые исполняются народными певцами-ханэндэ. Автор обратился к разным источникам, касающихся творчество Ширванских ашугов и отметил название песен созданных ашугами этого региона. Автор также отмечает народные песни, которые основываются на мелодии ашугских напевов.

K.A.Atakishiyeva

SONGS TRANSFORMED FROM ASHUG ART TO KHANENDE

Key words: *ashug, khanende, folk song, mugam, genre, creativity*

The article is dedicated to the songs created in ashug art. The article provides information about the songs created by ashugs, which are performed

by folk singers. The author turned to various sources regarding the work of Shirvan ashugs and noted the name of the songs created by ashugs. The author also notes folk songs that are based on the ashug melody.

Azərbaycan şifahi ənənəli professional musiqisinin iki möhtəşəm qolunu təşkil edən aşıq və muğam sənəti əsrlər boyu bir-birilə qarşılıqlı əlaqə və təsir şəraitində inkişaf etmişdir. Həm aşıq, həm də muğam sənəti türk dilli xalqların mədəni həyatında xüsusi yer tutur. Böyük musiqi sərvətini özündə ehtiva edən hər iki sənət elmi tədqiqatlar üçün geniş mövzudur və Orta əsr Şərq alimlərinin yaradıcılığından başlayaraq bu günümüzə qədər öyrənilir, tədqiq olunur.

Bu sənətin tədqiqində əsas məsələlərdən biri də janr təsnifatı ilə bağlıdır. Belə ki, musiqişünaslıq elmində aşıq sənətinin musiqi yaradıcılığı ilə bağlı təsnifat sistemi müəyyən inkişaf mərhələsi keçmişdir. Aşıq sənəti ilə bağlı ilk təsnifatlar aşıq sənətinin görkəmli tədqiqatçısı Ə.Eldarovanın «Azərbaycan aşıq sənəti» əsərində aparılmışdır. Burada poetik janrla bağlı musiqi havaları, məkanla bağlı havalar, konkret aşıq adları ilə bağlı havalar, xalq qəhrəmanları ilə bağlı yaranmış havalar, xalq adət-ənənələri ilə bağlı yaranmış havalar və s., eləcə də nəsr və musiqi janrlarının birləşdiyi dastan haqqında məlumat verilir. Daha sonra bu proses aşıq sənətinin tədqiqatçıları T.Məmmədovun, İ.Köçərlinin, K.Dadaşzadənin monoqrafiyalarında işıqlandırılır. Aşıq havalarının təsnifatı onların quruluşu, ifa xüsusiyyətləri, xarakteri, lad əsası və s. bağlı aparılır. İ.Köçərlinin "Aşıq sənəti:musiqili poetik janrlar" əsərində aşıq musiqisində mahnı və rəqs janrlarının iştirakı qeyd edilir. Aşıq mahnısı anlayışı ümumiyyətlə bir qədər qeyri müəyyən mövqeyə sahibdir. Belə ki, aşıq havaları kimi tanınan bir sıra nümunələr həm də müxtəlif məqamlarda aşıq mahnısı kimi adlandırılır. Buna səbəb həmin havaların xalq mahnı janrına yaxınlığından irəli gəlir. Eyni zamanda aşıq yaradıcılığında sırf mahnı mövqeyi daşıyan nümunələr də mövcuddur. Bu nümunələrin əsas hissəsi Şirvan aşıq mühitinə aiddir. Bunun da əsas səbəbi Şirvan mühitinin səciyyəvi xüsusiyyətləri ilə bağlıdır. Belə ki, Şirvan aşıq mühitinə məxsus havaların xarakteri, quruluşu, eləcə də ifa xüsusiyyətləri digər mühitlərə nisbətən xalq mahnı yaradıcılığına daha yaxındır. Bu yaxınlığın isə əsas səbəblərindən biri Şirvanda aşıq və muğam sənətinin sıx təması ilə bağlıdır.

«Mahnı yaradıcılığı və mahnı ifaçılığı Şirvan aşıq mühitinin özünəməxsus, qədim sənətkarlıq ənənələrindən biridir. Peşəkar ustad aşıqların yaratdıqları müxtəlif mövzulu mahnılar aşıqların repertuarına daxil edilmiş, ənənəvi və müasir mahnı repertuarında özünə daimi yer qazanmışdır. Hətta qüdrətli ustad aşıqların mahnıları tədricən mühitin ənənəvi havasına çevrilmiş, ifaçılıqda ənənəvi hava kimi yaşamışdır. Araşdırmalar göstərir ki, bəzən Şirvan aşıq mahnıları xanəndə və müğənnilərin repertuarında da ifa olunur». [4,s.16]

Klassik aşıq havacatı ilə yanaşı, aşıqların yaradıcılığında mahnıların

yaranması bu mühit üçün daha xarakterikdir. Bu mühitdə aşıq və xanəndə yaradıcılığının sıx təmas şəraitində inkişaf etməsi ilə bağlı olsa da, aşıq yaradıcılığının xanəndə sənətinə təsiri sadəcə mahnılarla məhdudlaşmır. Aşıq musiqisində bir sıra havalar vardır ki, onlar xanəndələr tərəfindən də ifa olunur. Bu havalar «Güllü qafiyə», «Kərəmi», «Döymə Kərəmi», «Çoban bayatı», «Arazbarı», «Heydəri», «Ovşarı», «Kəsmə şikəstə», «Qarabağ şikəstəsi», «Şirvan şikəstəsi», havalarıdır. Bu havalar xanəndə repertuarında müxtəlif janr qrupunda cəmləşmişdir. Məsələn, «Arazbarı», «Heydəri», «Ovşarı», «Qarabağ şikəstəsi», «Kəsmə şikəstə» zərbi-muğam adı altında, «Çoban bayatı» instrumental muğam kimi, «Güllü qafiyə», «Kərəmi», «Döymə Kərəmi» havaları isə zərbi-muğam tipli musiqi nümunələri kimi ifa olunur.

Bununla belə, mahnı həm aşıq, həm də xanəndə tərəfindən yaradılan musiqi nümunəsi kimi hər iki repertuarda yer alması, onun bir repertuardan digərinə keçməsini də təmin etmiş olur. Digər tərəfdən aşıq mahnısının xanəndə tərəfindən ifa edilməsi daha mürəkəb aşıq havacatına nisbətən daha rahatdır. Klassik aşıq havacatının tələb etdiyi özünəməxsus ifa xüsusiyyətləri, müşayiət prinsipləri və s. mahnılar üçün səciyyəvi deyildir. Bu baxımdan aşıq mahnılarının müxtəlif repertuarlara yol tapması təbiidir.

Bununla belə, aşıq mahnısının xalq mahnı janrına yaxın olan, onunla ümumilik təşkil edən cəhətlərini də qeyd etmək lazımdır. İlk növbədə burada poetik əsası göstərmək olar. Məlumdur ki, xalq mahnılarının poetik məzmunu əsasən bayatılardan təşkil olunur. Aşıq mahnıları əsas etibarilə qoşma və ya gəraylı üzərində oxunur ki, bu janrlar da xalq mahnılarında tez-tez rast gəlinir. Mahnının adı xalq mahnılarında olduğu kimi ilk misradan götürülür. Kuplet forması bu mahnılar üçün xarakterik olur.

"XX əsrin II yarısında aşıqlardan klassik havaların ifası ilə yanaşı öz bəstələri də tələb olunurdu. Nəticədə, hələ Şirvan aşıq mühitində xeyli sayda aşıq mahnıları meydana gəlmişdir. Aşıq Bilalın ("Bilal şəşəngisi"), Aşıq Pənahın ("Pənah gözəlləməsi", "Ana Kürüm" və b.), Aşıq Şakirin ("Şakir gözəlləməsi"), Aşıq Xanışın ("Məhəbbətin qüdrəti"), Aşıq Xanmusanın ("Xəzərim", "Şən bahar", "Kolxozçu qızlar", "Yalvara-yalvara" və b.) və digər Şirvan aşıqlarının onlarla bəstəsi mövcuddur. Hətta üzərində üç həfə işləyərək yeni variantlarını ifaçılara təqdim edən Aşıq Xanmusa "Yalvara-yalvara" havasına görə "Həvəskar bəstəkar" adını almışdır". [5, s.457]

Aşıq sənətinin xalq mahnı yaradıcılığına təsiri bir neçə istiqamətdə getmişdir. Məlumdur ki, xalq mahnılarının əksəriyyəti xanəndələr və aşıqlar tərəfindən yaradılmışdır. Xüsusilə, inkişaflı melodik və ritmik musiqi məzmununa, aşıq poeziyasına xas janrlara əsaslanan, eləcə də xanəndə yaradıcılığında təşəkkül tapan bir sıra mahnılar məhz bu sənət sahibləri tərəfindən yaradılmış, sevilərək xalqlaşmışdır.

Xalq mahnılarına yaxın olan aşıq mahnıları xalq tərəfindən sevilərək o qədər

populyarlaşmışdır ki, onların əksəriyyəti artıq xalq mahnısı kimi tanınır. Onlardan bəziləri isə xalq mahnısı kimi tanınmaqla yanaşı, aşıq havacat sistemində müəyyən havaya əsaslanır. Bu baxımdan "Sarı köynək", "Yaxan düymələ" xalq mahnılarını göstərmək olar. Bu mahnıların musiqi məzmunu aşıq havacat sisteminə daxil olan "Dübeyti" və "Mirzəcanı" havalarına əsaslanır. Həmin musiqi üzərində ifa olunan bu xalq mahnılarının yaradıcıları əslində aşıqlardır. Ola bilər ki, həmin havaların musiqisi üzərində el şənliklərində başqa mətn əsası ilə mahnılar ifa edilmiş, xalq tərəfindən sevilərək məhz xalq mahnısı kimi tanınmağa başlamışdır.

İkinci bir tərəfdən aşıqların repertuarında xalq mahnıları ruhunda yaradılan musiqi nümunələri də mövcuddur ki, onlar tez bir zamanda populyarlıq qazanaraq müxtəlif repertuarlara daxil edilmişdir. Bu baxımdan "Dil aç telli sazım", "Nar ağacı, nar çiçəyi" kimi aşıq mahnılarını biz həm xanəndələrin, hətta estrada müğənnilərinin ifasında eşitmişik.

Qeyd edək ki, aşıq sənətində musiqi janrlarının təsnifatı məsələsi musiqişünaslıq tədqiqatlarında diqqət mərkəzinə çəkilmiş və bir sıra meyarlar əsasında təsnif edilmişdir. Lakin tədqiqat prosesi davam etdikcə aşıq musiqi yaradıcılığı ilə bağlı təsnifatlar da yenilənərək, bir qədər də zənginləşmişdir. Aşıq musiqi yaradıcılığında klassik aşıq havaları ilə yanaşı, aşıq mahnıları, saz havaları, rəqs havaları kimi bəndlər də daxil edilmişdir. Buna səbəb aşıq ifasında səslənən musiqi nümunələrinin təhlili nəticəsində onların kəsb etdiyi fərqli ifa xüsusiyyətləri, forma və məzmun quruluşu yeni janr təsnifatının yaranmasına ehtiyac doğurmuşdur. Xanəndələrin ifasında səslənən xalq mahnıları, instrumental ifaçılığən inkişafı aşıq sənətində də bu tip nümunələrin yaranmasına münbit şərait yaratmışdır.

Aşıq sənətinin müasir musiqi ifaçılığına təsiri daha inkişaflı və yeni məzmun kəsb etmişdir. Müasir dövrdə xalq musiqi yaradıcılığına göstərilən dövlət qayğısı, eləcə də aşıq sənətinin təbliği sahəsində görülən işlər, uğurlu proyektlər bu sənətə maraq və rəğbətin artmasına səbəb olmuşdur. Nəticədə aşıq sənəti ilə məşğul olan gənclərin sayı artmış, aşıq ifaçılığı bir ixtisas kimi ali təhsil müəssisəsində tədris edilməyə başlamışdır. Aşıq musiqisinin efir məkanında tez-tez səslənməsi, aşıq sənəti ilə bağlı bədii-intelektual verilişlərin təşkili bu sənətin yenidən ölkənin mədəni həyatında mühüm rol oynamasına təkan vermişdir. Bütün bu faktlar aşıq yaradıcılığının musiqinin digər sahələrinə təsirini də gücləndirmişdir. Aşıq mahnılarının estrada müğənnilərinin repertuarında yer alması, bu nümunələrin yeni aranjimanda versiyalarının yaranması bu təsirin bariz nümunələrindən biridir.

Buradan belə nəticəyə gəlmək olur ki, sənətlər arası yaradıcı əlaqələr sinkretiklikdən bədii sintezə gedən böyük tarixi inkişaf yolu keçmişdir. Bu isə sənətindən asılı olmayaraq hər bir xalq musiqiçisinin vahid milli musiqi təfəkküründə sahib olmasından irəli gələn təbii hadisədir. Aşıq, xanəndə və ya instrumental ifaçı öz yaradıcılığı ilə Azərbaycan xalq musiqisinin etnik və genetik kodlarını özündə daşıyan sənət nümunələri sərgiləyir. Bu yaradıcılıq sahələri janr,

məzmun, ifaçılıq formaları, peşəkarlıq səviyyəsinin müxtəlif meyarlarına sahib olsalar da, hər biri ümumilikdə milli musiqi sənətini təmsil edir. Bu səbəbdən də sənətlər arası janr və ifaçılıq ənənələrinin transformasiyası yeni sintez nümunəsi kimi deyil, təbii proses kimi qavranılır.

ƏDƏBİYYAT

1. Köçərli İ.T. Aşıq sənəti: musiqili poetik janrlar. B.: 2010, 218 s.
2. Qəniyev S.H. Şirvan aşıqları. I cild, B.: Nurlan 2007, 698 s.
3. Məmmədov T.A. Azərbaycan aşıq yaradıcılığı. B.: Apostrof, 2011, 648 s.
4. Əliyeva X.A. Şirvan aşıq havalarının məqam və melodiya xüsusiyyətləri. Avtoreferat. B.: Mütərcim, 2014, 29 s.
5. Hüseynova Z.R. Şirvan aşıqlarının mahnı janrında bəzi üslub xüsusiyyətləri/ III Beynəlxalq Həmzə Nigari Türk Dünyası Mədəni İrs Simpoziumu, Azərbaycan, Şamaxı, 2017, s.456-459

Məqalənin redaksiyaya daxil olma tarixi: 15.11.2019
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 16.11.2019
Məqalənin çapa qəbul olunma tarixi: 29.12.2019
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaşzadə
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.